Qəbələdə Yeni Azərbaycan Partiyasının VIII Qurultayından irəli gələn vəzifələrə dair müşavirə keçirilib





Oktyabrın 14-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayındakı nitqindən irəli gələn vəzifələrə dair müşavirə keçirilmişdir. Müşavirədə Qəbələ Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, "Qəbələ səsi" qəzetinin jurnalistləri, qeyri-hökumət təşkilatlarının, turizm obyektlərinin rəhbərləri, İƏN nümayəndələri, bələdiyyə sədrləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, dini qurumların, şəhid ailələrinin üzvləri, qazilər, ağsaqqallar, gənclər, sahibkarlar və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Qəbələ Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Müşavirədə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək 2 oktyabr 2026-cı il tarixdə keçirilmiş qurultayda ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin proqram xarakterli çıxışında həm keçmişə baxış, həm də gələcəyə yönəlmiş siyasi-strateji çərçivə təqdim etdiyini, eyni zamanda milli təhlükəsizlik və inkişaf nəzəriyyəsinin başlıca istiqamətlərini və qarşıda duran əsas vəzifələri müəyyənləşdirdiyini qeyd etmiş, Qurultayın Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasından sonra keçirilən ilk qurultay olması baxımından xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, qarşıdakı dövrdə əsas vəzifələrimizin əldə olunmuş nəticələrin qorunması, ölkəmizin inkişafının davam etdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və cəmiyyətin ideoloji təhlükələrdən qorunmalı olduğunu bildirmişdir. İcra başçısı ölkədə və rayonda sosial-iqtisadi sahədə əldə olunmuş uğurlardan, həyata keçirilən layihələrdən danışmış, mənəvi dəyərlərimizin qorunması istiqamətində görülməli tədbirlərdən söz açmış, ideoloji işin düzgün qurulmasından, bu sahədə ayrı-ayrı qurumların üzərinə düşən vəzifələrdən bəhs etmişdir. Müşavirədə çıxış edənlər Yeni Azərbaycan Partiyasının VIII Qurultayının əhəmiyyətini vurğulayaraq, bu gün xarici mərkəzlər - media və sosial media platformaları vasitəsilə ziyanlı ideoloji təbliğat apararaq vətəndaşlarımızı, xüsusilə uşaq və gəncləri təsir altına salmağa çalışdığını və bu məsələdə hər birimizin ayıq-sayıq olması, öz sözümüzü demək və biganə qalmamağımızı bildirmişlər.

Müşavirəyə yekun vuran rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ölkə rəhbəri tərəfindən qurultayda qaldırılan məsələlər və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində hər kəsə məsuliyyətli və diqqətli olmağı tövsiyə edərək onlara uğurlar arzulamışdır.

Qəbələ-Xankəndi marşrutu üzrə ultramarafon qaçışı



Qəbələdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası, Bakı Şəhər Halqası, "Zəfər" qaçış klubu və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Qəbələ-Xankəndi" marşrutu üzrə ultramarafonuna start verilib. Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoyaraq, əziz xatirəsini ehtiramla yad etmişlər. Qəbələ şəhər Heydər Əliyev parkında təşkil olunan tədbirin rəsmi hissəsi Azərbaycan Dövlət Himninin səslənməsi və Ümummilli Lider Heydər Əliyevin, ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova qonaqları salamlayaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan idman və gənclər strategiyasının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Qəbələnin beynəlxalq miqyaslı tədbirlərə - dövlət başçılarının iştirakı ilə keçirilən zirvə toplantılarına, görüşlərə, sammit və forumlara, beynəlxalq musiqi festivallarına, incəsənət sərgilərinə, idman yarışlarına ev sahibliyi etdiyini diqqətə çatdırmış və idmançılara uğurlar arzulamışdır. Çıxış edən Gənclər və İdman Nazirliyinin İdman Şöbəsinin müdiri Elnur Məmmədov ardıcıl üçüncü dəfə keçirilən ultramarafonun yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, yarış iştirakçılarının marşrutun 3-cü günü Bərdədən Ağdamadək 44 kilometr məsafə qət edəcəklərini və bu rəqəmin Vətən müharibəsində qazanılan zəfərlə əlaqədar rəmzi məna daşıdığını diqqətə çatdırmışdır. Çıxış edən Azərbaycan Atletika Federasiyasının baş katibi Məhərrəm Sultanzadə ultramarafona marağın ildən-ilə artdığını, bu cür yarışların bölgələrdə idmanın inkişafına böyük təkan verdiyini bildirmişlər. "Qəbələ-Xankəndi" marşrutu üzrə ultramarafon qaçışına Qəbələdən start götürən marafona Azərbaycan, İran, Ukrayna, Gürcüstan, Rusiya və Litvadan 97 nəfər atlet qatılıb. 8 -11 oktyabr 2026-cı il tarixlərdə keçirilən marafonda iştirakçılar 192 km məsafəni qət edərək Xankəndidə finişə çatmışlar.







Yaşlı nəslin nümayəndələri ilə görüş



29 oktyabr 2026-cı il tarixində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayon ağsaqqallar şurasının üzvləri və ümumilikdə yaşlı nəslin nümayəndələri ilə görüşü keçirilmişdir. Qəbələ Mədəniyyət Mərkəzində keçirilən görüşdə çıxış edən icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev respublikamızda son illər ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı sosial-iqtisadi layihələrdən və əldə olunan nailiyyətlərdən, o cümlədən Qəbələ rayonunda görülmüş işlərdən, keçirilən beynəlxalq miqyaslı tədbirlərin rayonun istər sosial-mədəni, istərsə də turizm sahəsinə böyük töhfələr verdiyindən bəhs edərək, cəmiyyətimizin inkişafında, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında yaşlı nəslin müstəsna rolunu xüsusi vurğulamış, onların həyat təcrübəsinin və müdrik məsləhətlərinin gənclər üçün hər zaman mühüm örnək olduğunu qeyd etmişdir. Daha sonra çıxış edən yaşlı nəslin nümayəndələri rayonda aparılan abadlıq-quruculuq işlərini yüksək qiymətləndirmiş, gənclərin milli köklərə bağlı, savadlı, ləyaqətli vətənpərvər kimi yetişməsi istiqamətində həyata keçirilən tədbirlərə hər zaman dəstək olmağa hazır olduqlarını ifadə edərək, yaşlı nəslə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

